BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Humanitar elmlər seriyası* *2005*

# 1969-1982-Cİ İLLƏRDƏ AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

B.E.NƏBİYEV

Heydər Əliyevin Azərbaycana rəhbərlik dövrü respublikanın sosial-iqtisadi inkişaf tarixində xüsusi bir mərhələ və intibah dövrüdür. Bu fikrin reallığını sənədlər və faktlar da sübut edir. Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi tarixi zərurət olub. 1969-cu ilin ortalarına qədər keçmiş SSRİ-nin tərkibində sosial-iqtisadi inkişafın bütün sahələri üzrə özünün tənəzzül dövrünü yaşayan, Sovetlər Birliyinə daxil olan respublikalar arasında sonuncu yeri bölüşdürən respublikamızı mövcud vəziyyətdən çıxarmaq üçün müdrik, bacarıqlı, milli dəyərləri yüksək olan bir rəhbərə ehtiyacı var idi.

Belə bir rəhbər Heydər Əliyev oldu. Heydər Əliyev 1969-cu ildə Azərbaycanın taleyinə və tarixinə qüdrətli xilaskar kimi daxil olaraq, öz quruculuq əməlləri, fədakar əməyi, uzaqgörən siyasəti ilə şərəfli bir tarix yazdı. 34 illik bu tarix Azərbaycanda iqtisadi inkişaf və mədəni yüksəliş dövrüdür. Məhz, buna görə də yaddan çıxarmaq olmaz ki, respublikamızda yeni iqtisadi sistem – bazar iqtisadiyyatına keçid boş özüllər deyil, möhkəm sütunlar üzərində – 1969-1982-ci illərin uğurları üzərində qurulur. Yəni bugünkü müstəqilliyimizin əsasları hələ 70-ci illərdə qurulmuşdur (1).

Müasir sivilizasiyanın təcrübəsi göstərir ki, dünyanın bütün inkişaf etmiş dövlətlərində müntəzəm olaraq sosial-iqtisadi inkişaf səviyyəsi, onun problemləri təhlil olunur, ümumiləşdirmələr aparılır, çətinliklər, ziddiyyətlər aşkarlanır, müasir tələblərə uyğun inkişaf yolları, istiqamətləri müəyyənləşdirilir.

Aparılmış ümumiləşdirmələrdən aydın olur ki, 1969-1982-ci illərdə milli iqtisadiyyatın inkişaf etdirilməsi bütün xalqımızın, respublika əhalisinin marağına, vətəndaşlıq borcuna çevrilmişdir. O da bir həqiqətdir ki, respublikamızın iqtisadiyyatı, o cümlədən kənd təsərrüfatı keçmiş Sovetlər Birliyinin mənafeləri əsasında formalaşmışdır. Lakin 1969-1982-ci illər bu baxımdan fərqlənir. Bu illərdə Azərbaycan iqtisadiyyatının, sosial-mədəni həyatın inkişafı milli dəyərlərə söykənmiş, respublikanın təbii iqlim şəraiti, əlverişli coğrafi vəziyyəti nəzərə alınmışdır. Məhz, 1969-1982-ci illərin iqtisadi inkişafı və mədəni yüksəlişi bu siyasətin – Heydər Əliyev təcrübəsinin, uzaqgörənliyinin nəticəsidir. Bu illərdə respublika iqtisadiyyatının dinamik inkişafı təmin edilmişdir, taxılçılığın, üzümçülüyün, texniki bitkilərin istehsalı, heyvandarlığın

inkişaf imkanları reallaşdırılmışdır. Böyük zəhmət hesabına respublikada güclü aqrar-sənaye bazası yaradılmışdır.

Keçmiş Sovetlər Birliyində müttəfiq respublikaların sosial-iqtisadi inkişaf sahəsindəki hüquqları məhdud xarakter daşıyırdı. Buna baxmayaraq, 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev iqtisadiyyatda yaranmış vəziyyəti təhlil edərək respublikanın iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, nöqsan və qüsurların aradan qaldırılması istiqamətlərini, onların həlli yollarını müəyyən etdi və uzun sürən geriliyə son qoydu. Əgər 60-cı illərin axırlarında respublikada adambaşına düşən milli gəlir ittifaq səviyyəsinin 61 faizini təşkil edirdisə, 80-ci illərin əvvəllərində bu rəqəm 82 faizə çatmışdı (2). Bu yüksəlişin mahiyyəti on minlərlə yeni iş yeri, onlarla müasir zavod, fabriklər, istehsal sahələri, sosial-mədəni həyatda köklü dəyişikliklər demək idi.

1969-1982-ci illərdə Heydər Əliyevin çox uğurlu iqtisadi siyasəti və həyata keçirdiyi tədbirlər nəticəsində, respublika xalq təsərrüfatının hərtərəfli dinamik və intensiv inkişafını nəzərdə tutan Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 5 xüsusi qərarının qəbul edilməsi və icrası nəticəsində Azərbaycan sənayesində əmək məhsuldarlığı 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə, bütünlükdə xalq təsərrüfatında mənfəət 335 faiz artmışdı (3). 1969-1982-ci illərdə Heydər Əliyevin birbaşa nəzarəti və rəhbərliyi altında inşa edilən 250-dən artıq sənaye müəssisəsi Azərbaycan iqtisadiyyatında yeni bir dövrün əsasını qoydu.

Həmçinin, Heydər Əliyev bütünlükdə respublika iqtisadiyyatının sağlamlaşdırılmasını kənd təsərrüfatının daha da inkişaf etdirilməsində görürdü. Ümumiləşdirmələr göstərir ki, 1969-1982-ci illərdə respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisinin artmasının və keçmiş müttəfiq respublikaları ilə müqayisədə üstün inkişafının başlıca səbəbi məhz ümummilli liderimiz Heydər Əliyevin bu sahəyə xüsusi qayğısının və diqqətinin nəticəsidir.

1969-1982-ci illərdə görülən tədbirlərdən biri və hətta ən önəmlisi kənd təsərrüfatının əsas sahələrinin, o cümlədən taxılçılığın, pambıqçılığın, üzümçülüyün və şərabçılığın, tərəvəzçiliyin, bostançılığın, tütünçülüyün, heyvandarlığın və baramaçılığın inkişafında baş verən meyllərin aşkara çıxarılmasını təmin etməkdən ibarət olmuşdur. Bütün bunlar isə ilk öncə dövlət başçısı Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən bir sıra siyasi, iqtisadi, texniki, texnoloji və təşkilati tədbirlərin sayəsində mumkün olmuşdur.

1969-1982-ci illərdə kənd təsərrüfatının dinamik və intensiv inkişafında Aqrar Sənaye Kompleksinə kapital qoyuluşunun artırılması, kənd təsərrüfatının mexanikləşdirilməsi, elektrikləşdirilməsi sahəsində görülən işlər də böyük rol oynamışdır. Burada Heydər Əliyevin rolu olduqca böyük olmuşdur. Ulu öndərimizin çox böyük səy və bacarıqla Mərkəzin, müvafiq nazirliklərin diqqətini Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsinə yönəltməsi, Mərkəzdən külli miqdarda kapital qoyuluşu alması, respublikaya ən yeni və çoxsaylı texnika gətirilməsi 1969-1982-ci illərdəki uğurların,

böyük nailiyyətlərin əldə olunmasında inkaredilməz təminatdır.

Bu illərdə Heydər Əliyevin şəxsi nəzarəti altında kənd təsərrüfatının maddi texniki təchizatını gücləndirmək, istehsal sahələrini mexanikləşdirmək, əmək intizamını, onun səmərəliliyini yaxşılaşdırmaq hesabına respublikada pambıqçılıq, üzümçülük, tütünçülük, heyvandarlıq və digər sahələr çox sürətlə inkişaf etdirildi.

Kənd təsərrüfatının sürətli inkişafını elmi nailiyyətlərin tətbiqində görən Heydər Əliyev aqrar sahə ilə bağlı elm sahələrinin inkişafına diqqətin artırılmasını tələb etdi. Nəticədə, qısa müddətdə yüksək məhsuldarlığa malik yeni toxum sortları yetişdirildi, mütərəqqi texnologiya hazırlandı və ondan geniş istifadə olunmağa başlandı.

Heydər Əliyev Mərkəzdəki nüfuzundan istifadə edərək respublikaya yeni texnika, yanacaq, ehtiyat hissələri, texniki materiallar, mineral gübrə və digər vasitələr gətirilməsinə nail olmuşdu. Həmçinin respublikanın kənd təsərrüfatı istehsalının inkişafında Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci ilin iyulunda qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında», 1975-ci ilin iyulunda qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında», 1979-cu ilin fevralında qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülük və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» qərarların həyata keçirilməsi də mühüm rol oynadı. Bu qərarlarda respublikanın kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil olunmuş, bu sahənin inkişaf perspektivləri müəyyənləşdirilmişdi.

Beləliklə, görülən əsaslı tədbirlər nəticəsində Azərbaycanda 70-ci illərin əvvəllərindən başlayaraq, kənd təsərrüfatı məhsullarının istehsalında köklü irəliləyiş başladı. Kənd təsərrüfatının orta illik ümumi məhsulu 1971-1975-ci illərdə 1,4 milyard manata çatdırıldı ki, bu da əvvəlki beş ildəki müvafiq göstəricidən 34 faiz artıq idi (4. səh.18-20).

Həmçinin, 1975-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu ildəki 999 milyon manatlıq əvəzinə 1 milyard 572 milyon manatlıq oldu, yəni 58 faiz artırıldı (5. səh.6-7).

1969-1982-ci illərdə kənd təsərrüfatının sürətlə inkişaf etməsində irriqasiya və meliorasiya tədbirlərinin vaxtlı-vaxtında həyata keçirilməsinin də olduqca böyük əhəmiyyəti olmuşdur. Belə ki, 70-ci illərdə respublika rəhbərliyinin xüsusi göstərişi ilə Azərbaycanda 96 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 343 min hektar suvarılan torpaqların meliorasiya vəziyyəti yaxşılaşdırılmış, 610 min hektar sahədə suvarma sistemi yenidən qurulmuş, 294 min hektar torpaq əkin üçün hazır vəziyyətə gətirilmiş, 544 min hektar qış otlaqları su ilə təmin edilmişdi (6. səh.16).

Kənd təsərrüfatının ümumi istehsalında aqrar sənaye kompleksinin intensiv inkişaf etdirilməsi də bu illərdə diqqət mərkəzində olmuşdur. Bu da öz növbəsində kənd təsərrüfatında ümumi məhsulun həcminin artmasına böyük təsir göstərmişdir. Təkcə

1978-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2 milyard manatdan çox artmışdır ki, bu da 1971-1975-ci ildə əldə edildiyindən 44 faiz çox idi.

1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında toplanmış zəngin təcrübə və aşkara çıxarılan yeni ehtiyat mənbələri əsasında kənd təsərrüfatını daha da inkişaf etdirmək yolları müəyyən edildi. Aparılmış araşdırmalar, toplanmış təcrübə belə bir nəticə çıxarmağa imkan verdi ki, Azərbaycanın torpaq-iqlim şəraiti və əldə edilmiş müvəffəqiyyətlər kənd təsərrüfatını daha da dərindən ixtisaslaşdırmağa və mərkəzləşdirməyə, kənd təsərrüfatının bütün sahələrində istehsalın həcmini və keyfiyyətini durmadan artırmağa imkan verir. Həmçinin, respublikada kənd təsərrüfatının mühüm sahələrində – pambıqçılıqda, üzümçülükdə uzun illər mövcud olan geriliyin, nöqsanların aradan qaldırılmasında, onun inkişaf etdirilməsində, ixtisaslaşdırılmasında, daha əlverişli təbii-iqlim şəraiti olan rayonlarda yetişdirilməsi sahəsində çox mühüm nailiyyətlər qazanılmışdır. Təkcə, onu qeyd etmək lazımdır ki, 1981-ci ildə respublikada ən yüksək rekord səviyyəsində 1 milyon 15 min 300 ton məhsul toplanmışdır (7. v.85-88). Bu rəqəm 1970-ci ildə 335 min ton təşkil etmişdir (8. səh.93-95). Pambıq istehsalında ixtisaslaşdırmaya diqqətin artırılması da öz müsbət nəticəsini vermişdir. 1980-ci ildə əsas pambıqçılıq rayonları olan Bərdə, Ağcabədi, Sabirabad, Jdanov (Beyləqan) və Salyan rayonlarında pambıq istehsalı 401 min tona çatdırılmışdı (9. Yenə orada).

1969-1982-ci ildə Azərbaycanda pambıqçılıqda və üzümçülükdə dərin dəyişikliklər baş vermiş, pambıq istehsalı 1969-cu ildəkinə nisbətən 1979-cu ildə 2,5 dəfə artmışdı (10. səh.49-50). Bu illərdə (1970-1979) dövlətə əvvəlki on ildəkindən 2 milyon tondan çox pambıq satılmış, orta illik artım 1,6 dəfə çox olmuşdu. 1971-1980-cı illərdə respublikada 5,5 milyon ton pambıq toplanmışdır (11. səh.49).

Həmçinin respublika rəhbəri Heydər Əliyevin təcrübəsi və misilsiz fəaliyyəti nəticəsində Azərbaycanda pambıqçılığın inkişafında dərin dəyişikliklər baş vermiş, bu sahədə intensiv amillərin gücləndirilməsi, əsaslı vəsait və əsas vasitələrdən istifadə səmərəliliyinin artırılması hesabına məhsuldarlıq xeyli artmışdı. Pambıqçılığın ixtisaslaşdırılması və mərkəzləşdirilməsi müsbət nəticələr vermişdi. Belə ki, 1969-cu ildə 28 rayonda 450 təsərrüfat pambıq yetişdirməklə məşğul olduğu və dövlətə 299 min ton pambıq təhvil verdiyi halda, 1980-ci ildə bu sahə 21 rayonda 370 təsərrüfatda cəmləşdirilmişdi və dövlətə 883,5 min ton pambıq yığılıb təhvil verilmişdi (12).

Aparılmış ümumiləşdirmələr və təhlillər göstərir ki, 1969-1982-ci illərdə respublikanın kənd təsərrüfatında xüsusilə, onun çox mühüm sahəsi olan pambıqçılıqda əldə edilən uğurlar, böyük nailiyyətlər respublika rəhbəri Heydər Əliyevin çox düzgün iqtisadi siyasəti, böyük iş və idarəçilik bacarığının nəticəsidir.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövrünün ən böyük

fərqləndirici xüsusiyyətlərindən biri əmək intizamının gücləndirilməsi, məsuliyyət hissinin yüksəldilməsi, tapşırılan iş üçün cavabdehliyin artırılması olmuşdur. Bu dövrdə əmək intizamının möhkəmləndirilməsi və əmək ehtiyatlarından səmərəli istifadə etmək bütün aidiyyatlı struktur rəhbərlərinin iş prinsipinə çevrilmişdi. 1969-1982-ci illərdə respublika rəhbəri – Heydər Əliyevin iqtisadi siyasətində ən önəmli müdrik cəhətlərdən biri daha gəlirli sahə olan üzümçülüyün inkişaf etdirilməsi olmuşdur. Bu illərdə ixtisaslaşdırılmış üzümçülük təsərrüfatlarının yaradılmasında, mexanikləşdirilməsində, suvarma sistemində, becərmə işlərində qabaqcıl təcrübələrdən bacarıqla istifadə sahəsində xeyli işlər görülmüşdü. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1970-ci ildə üzüm istehsalı 360 min tondan 1982-ci ildə 1 milyon 800 min tona çatmışdı (13. səh.144).

Beləliklə, belə nəticəyə gəlmək olur ki, Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərliyi dövründə respublikanın iqtisadiyyatının mühüm sahəsi olan kənd təsərrüfatında əldə edilən nailiyyətlər, təcrübə Azərbaycanın əldə etdiyi müstəqilliyin təməl daşlarından biri olmuşdur.

## ƏDƏBİYYAT


1. «Respublika» qəzeti, 5 fevral 1999.
2. Yenə orada.
3. «Azərbaycan» qəzeti, 19 yanvar 2005.
4. Народное хозяйство Азербайджанской ССР за 60 лет. Баку, 1980.
5. Heydər Əliyev. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli. B., 1979.
6. İrşad Əliyev. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. B., 1997.
7. Azərb.Respub.ARD SPİH arxivi, fond 1, siy.17.
8. Народное хозяйство Азерб. ССР в 1987 г. Баку, 1981.
9. Yenə orada.
10. Heydər Əliyev. Sovet Azərbaycanı. B., 1981.
11. Yenə orada.
12. «Kommunist» qəzeti, 31 yanvar 1981.
13. Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illərdə). Bakı, 1996.


## РАЗВИТИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА 1969-1982 ГГ.


Б.Э.НАБИЕВ


## РЕЗЮМЕ


В научной статье изучается роль и опыт общенационального лидера Гейдара Алиева в проведении в жизнь политики специализации, обеспечении интенсивного и динамичного развития ведущих отраслей сельского хозяйства в результате чего в 1969-1982 годы был положен конец существующему долгие годы в Азербайджане отставанию сельского хозяйства.